**İqtisadi Əməkdaşlıq Təşkilatının və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı tərəfindən Ankarada seminar keçirilmişdir**




Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin nümayəndəsi Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsinin müdiri Rəşad Bayramov 21-25 oktyabr 2013-cü il tarixdə İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) tərəfindən Türkiyənin Ankara şəhərində keçirilmiş seminarda iştirak etmişdir.

Sözügedən tədbirdə Türkiyə, İran, Azərbaycan, Pakistan, Əfqanıstan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan, Tacikistan, Səudiyyə Ərəbistanından, eyni zamanda, İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO), BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və İslam Konfransı Ölkələrinin İqtisadi Sosial və Statistik Tədqiqatlar Mərkəzindən (SESRİC) kənd təsərrüfatı sahəsi üzrə mütəxəssislər iştirak edirdi.

Seminarın əsas məqsədi İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrdə vahid məlumat bazasının formalaşdırılması və məlumat bazasında yerləşdiriləcək informasiyaların müqayisəliliyinin təmin edilməsi üçün eyni yanaşmaların tətbiqi üzrə birgə müzakirələr aparmaqdan ibarət idi.

Seminarın ilk günü FENİX platforması üzərində qurulmuş CountrySTAT proqramı təqdim edildi və onun əhəmiyyəti barədə məlumat verildi. CountrySTAT proqramı 4 bölməni: statistika, informasiya texnologiyaları, qarşılıqlı əlaqə və ölkə daxili uzlaşmanı əhatə edir. Statistika - məlumatların toplanmasını, metodologiya və təsnifatları, informasiya texnologiyaları - proqram təminatını, məlumatların yüklənməsi formatlarını, qarşılıqlı əlaqə - informasiya mübadiləsini, ölkə daxili uzlaşma isə bir neçə məlumat mənbəyi arasında razılaşmanı xarakterizə edir.

Proqram barədə ümumi məlumat verildikdən sonra ölkələr üzrə praktik tapşırıqlar yerinə yetirildi. Bundan əlavə bildirildi ki, ölkələrin əraziləri ilə bağlı olan mübahisəli məsələlərin olmaması üçün Coğrafi İnformasiya Sistemindəki (GİS) xəritələrin də göndərilməsi daha məqsədəuyğundur.

Seminarın sonunda FAO ekspertləri tərəfindən məlumatların yığılmasında istifadə edilən mobil telefonlar üçün proqram təminatı barədə məlumat verildi.